# ÇAĞDAŞ DƏRSLİK PROBLEMİ VƏ "ƏDƏBİYYATIN TƏDRİSİ METODİKASI"



*Mahmud ALLAHMANLI,*
*filologiya elmləri doktoru,*
*professor*

Son dövrün həyat reallıqları bir daha təsdiqləyir ki, işi işbilənlərə tapşırmaq lazımdır. Tanınmış metodist alim Fəxrəddin Yusifovun "Ədəbiyyatın tədrisi metodikası" (Bakı, ADPU, 2023) dərsliyi ilə tanış olduqdan sonra bu fikir təzədən yadıma düşdü və yazını da əvvəldən axıra qədər bu düşüncələr içərisində yazmağa kökləndim. Azərbaycanın müstəqilliyindən sonrakı dönəmlərin bütün prosesləri, ictimai, siyasi mədəni sahədə nə varsa hamısı bu həqiqəti aydınlığı ilə ortaya qoyur. Məktəb, tədris, dərslik sahəsində isə bu daha aydınlıqla özünü göstərir. Yeniləşmə adı ilə nəzərə çarpan tendensiyalar olmazın problemlərin qalaqlanmasına, yaradıcı işdən çox dağıdıcı funksiyanın aparıcılığına şərait yaratması ilə müşahidə olunur. Bir növ təhsil, tədris səriştədən çox uzaq təcrübə meydanına çevrilir. Halbuki, təhsil bütün mahiyyətilə strateji məsələdir və ona bu kontekstdən yanaşmaq düşüncəsini aşılamaq ümdə olandır. Orta və ali məktəblərdə dərslik adına yazılan kitabların mühüm qismi buna nümunədir.

Zəngin təcrübəyə və aydın təfəkkürə malik, təhsilin problemlərini bütün incəliklərinə qədər bilən və öz içərisindən keçirən ziyalı mühitimiz var. Orta əsrlərdən on doqquzuncu yüzilliyə doğru irəliləyən klassik məktəb təcrübəsi daim yeniləşmələrlə, mühitin və zamanın eühtiyaclarına hesablanan əlavələrin, yaradıcı dərs modellərinin nümunəsi ilə səciyyələnmişdir. Yaxın iki yüz ilin məktəb və dərslik təcrübəsi bunun tipik örnəyidir. M.Ş.Vazehin, S.Ə.Şirvaninin, M.Mahmudbəyovun, A.Şaiqin, R.Əfəndiyevin, F.Ağazadənin, S.M.Qənizadənin, B.Çobanzadənin, H.Araslının, Ə.Qarabağlının, C.Əhmədovun, A.Hacıyevin, S.Hüseynoğlunun, B.Həsənovun və başqalarının zəngin məktəb təcrübəsi və dərsliyin problemlərini bütün təfsilatı ilə müşahidələri daim gediləcək yolun perspektivlərini müəyyənləşdirmiş və bu gün də buna sədaqət nümayiş etdirməkdədir.

Metodist alimimiz F.Yusifovun "Ədəbiyyatın tədrisi metodikası" dərsliyi klassik ənənənin uğurlu yekunu kimi ortaya çıxmışdır. Sivilizasiyada inteqrasiya, ədəbi-mədəni yaddaş etnokulturoloji sistemin zəngin təcrübəsi ilə həmahəng addımladıqda tarixi yazmaq və yaratmaq imkanı qazanır. Keçmişdən gələcəyə aparan yol bu kutsallığın və təcrübənin uca tutlması sayəsində həm keçmişdən, həm də gələcəkdən eyni vaxtda keçə bilmək haqqına sahib çıxır. Daha doğrusu, prosesin ortaqlığını müəyyənləşdirməklə və ona əməl etməklə mövcudluğunu ortaya qoya bilir. Bütün bunlar özlüyündə F.Yusifovun dərsliyində əksini tapan problemlərin qoyuluşu və həllində bir məram, konsepsiya səviyyəsində özünü göstərir.

"Ədəbiyyatın tədrisi metodikası" dərsliyi üzərində müəllifin təzədən işlədiyini bilirdim və söhbətlərimizdə gərəkli əlavələrin ora gətirilməsini tez-tez dediyinin şahidi olurdum. Demək olar bütün düşüncəsi ilə ora köklənmişdi və nə edəcəkləri ətrafında bu və ya digər dərəcədə fikirlərini bölüşərdi. Artıq həmin dərslik çap olub və geniş ictimaiyyətə təqdim edilmişdir. Əvvəlki nəşrlərə yazı prosesində diqqət yetirdim və köklü dəyişikliklər apardığının, ciddi əlavələr etdiyinin şahidi oldum. "Giriş"inbaşlanğıc cümlələrində vurğulanır ki, "ədəbiyyatın tədrisi metodikası fənni pedaqoji universitetin filologiya fakültəsi tələbələrinin peşə hazırlığı işində - ilkin müəllim hazırlığında müstəsna rolu olan fənlər sırasındadır. Təsadüfi deyildir ki, bakalavr tədris planında ona xeyli vaxt ayrılmışdır. Boloniya prosesinə qoşulma, kredit sisteminin tətbiqi, Avropa təhsil məkanına inteqrasiya bu fənnin mövqeyini daha da artırmışdır. Həm müstəqil kurs, həm də onun ayrı-ayrı problemlərinin seçmə fənn qismində tədris olunması dediklərimizə əyani sübutdur". Ümumiyyətlə, təhsil, məktəb və tədris problemlərinin geniş kontekstdə təhlili və ümumi dinamik axarının işzlənməsi həmişə zəngin təcrübəyə, yaradıcı təfəkkürə diqqətli olmağı zəruriləşdirir. Məktəb təcrübəsi, əldə olunan uğurların (təcrübənin) paylanmasıbunu zərurət kimi həmişə qarşıya qoyur.

Prosesin dərslik səviyyəsində işlənməsi isə gəlinən yolun ümumi mənzərəsinə aydınlıq gətirmək və gediləcək yolu istiqamətləndirmək baxımından müstəsna əhəmiyyət kəsb edir. Metodist alimin bu kitabı illərin təcrübəsi olaraq meydana çıxmışdır. Hər səhifəsində, ayrı-ayrı problemlərin qoyuluşu və həllində özünü göstərən aydın təfəkkür və yanaşmalar bunun göstəricisidir. Məsələnin digər tərəfində auditoriyanı bilmək, ehtiyacları fəaliyyətində (dərs prosesində) görüb müşahidə etmək dayanır. Fəxrəddin müəllim bütünlükdə buradan çıxış etməklə yazdığı dərsliyin alınmasını təmin etmişdir. Burada səriştə, sənət sevgisi, elmi-metodiki qaynaqlara bələdlik və bunların ortaqlığını bir mənsubluq modeli olaraq faktlaşdıran yüksək müəllim intelleksiyası boy göstərir.

Ümumiyyətlə, sivilizasiyalarda inteqrasiya, ədəbi-mənəvi yaddaş keçmişdən, arxaik təsəvvürdən gələcəyə və günümüzə, günümüzdən sonrakı zamanlara bu yolla, bu karvanla daşınmağa həssaslıq göstərir. "Ədəbiyyatın tədrisi metodikası fənninin predmeti və nəzəri əsasları", "Ədəbiyyatın tədrisi tarixi", "Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları", "Ədəbiyyat fənni üzrə təhsil proqramı (kurikulumu)", "Ədəbiyyat kursunun məzmunu və öyrədilməsi sistemi", "Təlim strategiyası. Ədəbiyyat tədrisinin təşkili" və s. başlıqlar altında verilən təhlillər keçmişlə gələcək arasında tədrisin gedişi müstəvisində körpü funksiyasını yerinə yetirir.

Azərbaycan dövlətinin təhsil strategiyası bütün aspektləri ilə təhsil qanununda (2009) və ona qədər (həm də ondan sonra) qəbul olunan qərar və qətnamələrdə özünün əksini tapmışdır. "Ümumtəhsil konsepsiyası (milli kurikulum)" (30 oktyabr 2006-cı il), "Fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının konsepsiya və strategiyası" (25 iyun 2007-ci il), "Ümumtəhsil pilləsinin dövlət standart və proqramları" (3 iyun 2010-cu il), "Ali təhsil pilləsinin dövlət standartı və proqramı" (2010), "Ümumtəhsil məktəbləri üçün ədəbiyyat fənni üzrə təhsil proqramı"(2013), "Ümumi təhsilin dövlət standartları" (2020) və s. sənədlər dövlət və hökumətin təhsil siyasətinə xüsusi həssaslığın göstəricisidir. Müəllifin də bunları başlanğıc yazıda illər üzrə qeyd etməsi dərsliyin yazıldığı konsepsiyanın bir prinsip olaraq hansı strategiyaya bağlandığını aydınlıqla göstərir.

"Ədəbiyyatın tədrisi metodikası" dərsliyi müasir təcrübəni ümumiləşdirmək və əldə olunan zənginliyi tələbələrə (gələcək müəllimlərə) aşılamaq kimi möhtəşəm amala köklənir. Bütün bunlardan çıxış edərək tədqiqatçı-metodist alim vurğulayır ki, "ƏTM-i öyrənmədən orta məktəbdə ədəbiyyat tədrisinin məqsəd və vəzifələrini, ədəbiyyatın tədrisi tarixini; orta məktəbdə ədəbiyyat fənninin məzmununu və strukturunu; orta məktəbdə ədəbiyyatdan proqram materiallarını (ədəbi əsərlər, tarixi-ədəbi icmallar, sənətkarların həyat və yaradıcılıq yoluna dair materiallar, ədəbiyyat nəzəriyyəsinə dair nəzəri məlumatlar) təlim-tərbiyəvi əhəmiyyətini və tədrisi yollarını; ədəbiyyatdan sinifdənxaric və məktəbdənkənar işlərin məzmununu və təşkili yollarını; əyani və texniki vasitələrin, internet resurslarının dərslərə gətirilmə qaydalarını; ədəbiyyat üzrə fəndaxili və fənlərarası inteqrasiya məsələlərinə necə nail olmağı və s. məsələləri bilmək mümkün deyildir". Göründüyü kimi, bunların hamısı müəllimin fəliyyət proqramını müəyyənləşdirən ana axar kimi bütöv mahiyyəti ilə dərslikdə özünün ifadəsini tapır və bütünlükdə dərslik ayrı-ayrı bölmələr səviyyəsində bu mahiyyətin aydınlaşmasını diqqət önünə gətirir.




Dərslikdə vurğulanan əsas istiqamətlərdən birisi tələbə şəxsiyyətindən müəllim şəxsiyyətinə keçidin konseptual mənzərəsinin cızılması və müəllimlik fəaliyyətinin kutsallığının dərkidir. Tanınmış metodist uzun illərin təcrübəsinə və elmi-nəzəri ədəbiyyatın bu istiqamətdə dediklərinə (eləcə də məktəb tarixinin ortaya qoyduğu faktlara) istinad edərək bilik, bacarıq, səriştə və sənətsevərliklə yanaşı, müəllimin həm də böyük məhəbbətlə dolu ürəyə malik olmasını da xüsusi önəmli məsələ kimi vurğulayır. N.Tusi "yalnız elmi biliklərlə zənginləşmiş mənən sağlam adamlar cəmiyyət üçün faydalı ola bilər" söyləyirdi. Müəllim adı isə bütün parametrlərdə bunu daşımağa və reallaşdırmağa, nümunə olmağa köklənmişdir.

"Yaddaş məktəbi"ndən "düşüncə məktəbi"nə keçidlə səciyyələnən və "düşüncə məktəbi"ni prinsip olaraq əsasa çevirən təhsil proqramı həyati bacarıqlar, bu bacarıqların daim inkişafını şəxsiyyətyönümlülük və nəticəyönümlülük müstəvisində istiqamətləndirməyə həssaslıq nümayiş etdirməklə təlim prosesində islahat və dəyişikliklərin aparılmasını bir zərurət olaraq qarşıya qoyur. Bütün bunlar kontekstində məsələyə yanaşan tədqiqatçı alim çox doğru olaraq vurğulayır ki, "təlimdə əməkdaşlıq, qarşılıqlı anlaşma, subyekt-subyekt münasibətləri, şagirdin maraq, tələb və ehtiyaclarına ünvanlanma, şəxsiyyətyönümlülük, nəticəyönümlülük, inteqrativlik və s. məsələlər əsas məzmuna çevrilir". Ümumi konseptual məsələ kimi təhlil olunan bu problemlərin ədəbiyyat fənni timsalında konkretləşməsi və sistemli yanaşmaların mahiyyətə yönlənməsi ilə səciyyələnir.

Təlim özlüyündə bütün funksional səciyyəsi ilə strateji məsələdir və perspektivi, qarşıya qoyulan məqsədi, ona çatmaq üçün planlaşdırılan yol və üsulları özündə ehtiva edir. Məsələyə bu kontekstdən yanaşdıqda təlimin təşkilinə verilən tələblərin polifonik mənzərəsi; təlim mexanizmləri, metod, iş üsullarından tutmuş sinifdənxaric, məktəbdənkənar işlərə qədər bir rəngarənglik özünü göstərir. Məlum olduğu kimi, tədris bütün səviyyələrdə zamanından, mühitindən asılı olmayaraq yeniləşmələrə, müxtəlif əlavələrin olunmasına şərait yaradır və bu onun mahiyyətinə dayanan məsələ olaraq özünü göstərir. İyirminci yüzillik boyu yaranan dərsliklər də məhz bunları əsas kimi götürməklə mühitin, dövrün ortaya qoyduğu tələblərdən çıxış etməklə perspektivi müəyyənləşdirmişdir. Ə.Qarabağlının, C.Əhmədovun, A.Hacıyevin, B.Muradovun, Ş.Mikayılovun, S.Əliyevin (Hüseynoğlunun) və s. müəlliflərin ədəbiyyatın tədrisi ilə bağlı dərslik və dərs vəsaitləri bütün mahiyyəti ilə bu konsepsiya üzərində dövrün və zamanın ehtiyaclarından meydana çıxmışdır. Çağdaş mərhələdə ortaya çıxan dərslik və dərs vəsaitləri də həmin tarixi təcrübənin nəticəsi olaraq yaranmışdır. Haqqında danışdığımız dərslik də bu sıradadır.

Kitabda diqqəti cəlb edən problem məsələlərdən biri tənqidi təfəkkürün inkişafında mütaliə və yazı ilə bağlı dərs modelinin təhlilidir və digər dərs modeli fəal (interaktiv) dərslərin aparılması məsələsidir. Düşünməyə yönlətmə, dərketmə və düşünmə səviyyəsində gedən proses bütün spektrləri ilə dərsin uğurluluğunun təşkilinə və şagirdin bilik, bacarıq və vərdişlərinin formalaşmasına hesablanır. Dərslikdə bunun geneologiyası, mahiyyət səviyyəsində hansı nəticələrlə özünü təzahür etdirə bilməsi məsələləri bir bütöv olaraq açılma məqsədi daşıyır. Daha doğrusu, tələbələrə tədrisin zənginlik xronotoplarını çatdırmaq və mənimsətmək təsəvvürü formalaşdırır. Çünki fəal (interaktiv) təlimə gələn yol tarixi təcrübənin zənginliyinə, məktəb ənənəsinin əldə etdiyi nailiyyətlərin ümumi diaxroniyasına dayanır.

*(Davamı 9-cu səhifədə)*

*(Əvvəli 8-ci səhifədə)*

Məsələlərə tipoloji yanaşmalarda diqqət yetirən F.Yusifov fəal(interaktiv) təlimlə bağlı vurğulayır ki, "fəal(interaktiv) dərslər şagirdləri sehr dünyasına aparan, onları qəlbən və ruhən dərsə bağlayan, problemləri görməyə istiqamətləndirən, onları axtarışlara, düşünməyə, fikir mübadiləsi aparmağa, işgüzar ünsiyyətə sövq edən, onlarda sərbəst düşüncəni və həyati bacarıqları inkişaf etdirən maraqlı dərs modellərindən biridir. Ənənəvi dərslərdə bir yeknəsəklik, cansıxıcılıq, monotonluq müşahidə olunduğu halda, bu dərslərdə istifadə olunan üsulların rəngarəngliyi, iş formalarının müxtəlifliyi, fəal müzakirələr ona daha işgüzar və emosional çalarlar gətirir". Doğrudan da, bu şagirdyönümlük müstəvisində prosesin qurulması və dərs tipinin adda ehtiva olunan məzmuna bağlanmaqla mahiyyəti əks etdirir və prosesin gedişi haqqında dolğun təsəvvür formalaşdırır.

Təfəkkür aydınlığına dayanan problemlərin qoyuluşu və təhlilində diqqətçəkici məsələlərdən birisi terminlər, ayrı-ayrı adlar və texnoloji vasitələrlə əlaqəli verilən şərhlərdir. Ümumiyyətlə, son dövrlərin ədəbi-mədəni prosesi, elmi-nəzəri konsentrasiya müxtəlif səviyyələrdə terminalogiyanın işləkliyinə həssaslığı, daha doğrusu, meyillənmələri diqqət önünə gətirir. Terminologiyanın təbii gəlişi qəbul olunandı və həmişə də bu özünü göstərib, ancaq süni səviyyədə terminlərə meyillilik qəbuledilməz bir məsələdir. F.Yusifov dərslik boyu bütün səviyyələrdə terminlərə (eləcə də problemlərə) auditoriyanın başa düşəcəyi tərzdə aydınlıq gətirir. Məsələn, fəal(interaktiv), kurikulum, fasilitator və s. terminlər, eləcə də problemlər ətrafında mülahizələri bariz örnəkdir və məktəb təcrübəsinin zənginliyinə bağlanır.

Geniş və zəngin fakturanı sərgiləyən məktəb təcrübəsi yaradıcı mahiyyəti və cəmiyyət səviyyəsində funksional rolu ilə həmişə yeniləşmələrə, nailiyyətlərin yayılmasına və ciddi diskusiyalara əsas olmuşdur. Çağdaş mərhələdə fəal(interaktiv) təlimlə aparılan dərslər haqqında müxtəlif təhlil yazılar özünə yer alır və bunun tədrisə gətirdiyi iş formaları, qrup işləri həm də dərsin mahiyyətinə əlavələrin edilməsi ilə xarakterizə olunur. Motivasiya, tədqiqatın aparılması, məlumat mübadiləsi, müzakirə və təşkili prosesin canlı və kollektiv fəaliyyət üçün əlavə imkanlar yaratmaqla faktlaşır. Bir növ münbit şəraitdə imkanların ortaya çıxması üçün zəmin rolunu oynayır.

# ÇAĞDAŞ DƏRSLİK PROBLEMİ VƏ "ƏDBİYYATIN TƏDRİSİ METODİKASI"

Müasir dünyanın yeniləşən üzü, müxtəlif aspektlərdə özünü göstərən informativ texnologiyalar, keyfiyyət yeniləşmələri təbii proses olaraq təlimdə də yeniləşmələri və əlavələrin aparılmasını qaçılmaz edir. Bütün bunlar kontekstində ümumi prosesə diqqət yetirən müəllif çox doğru olaraq vurğulayır ki, "yaddaşa əsaslanan, onun daha çox yüklənməsinə istiqamət götürən, ancaq biliklərin verilməsinə çalışan, şagirdin hafizəsinə hesablanan, tədris olunan fənnin mənafeyini əldə rəhbər tutan ənənəvi təhsil paradiqması internet,informasiya bolluğu, elmi-texniki sıçrayışlar əsrinin sərt tələbləri ilə ayaqlaşa bilməzdi. İnformasiya bolluğu, əlçatanlığı, onların əldə olunması yollarının müxtəlifliyi öyrənmənin qarşısına yeni tələblər qoymağa başladı". Bütün bunlar özlüyündə zərurət olaraq reallığı əks etdirəcək iş modellərinin və məktəbin funksional rolunun aparıcılığında müəyyən işlərin görülməsini zərurət olaraq qarşıya qoydu. "Əməkdaşlıqla (kollektiv) təlim texnologiyası", "Layihələr metodu ilə təlim texnologiyası", "Keys metod təlim texnologiyası", "Modulla təlim texnologiyası" başlıqları altında verilən təhlillər, eləcə də "Fəal (interaktiv) təlimin mexanizmləri" ətrafında söylənən mülahizələr bütün spektrləri ilə tələbələrə bu yeniləşməni aşılamaq məqsədi daşıyır.

Tədrisin müxtəlif problemləri ətrafında təhlillər aparan və onu gələcək müəllimlərə aşılamağa həssaslıq göstərən müəllif son dövrün elmi-pedaqoji mənzərəsini ümumiləşdirmək müstəvisində fəal (interaktiv) təlimə gəlişin mahiyyətini sırf reallıq baxımından konret dərs nümunələri ilə açıqlayır. Buradakı iş formaları (fərdi iş, cütlərlə iş, kiçik qruplarla iş, böyük qruplarla iş) prosesin canlılığına və imkanların ortaya çıxmasına geniş şərait yaradır. Bundan əlavə dərslikdə planlaşdırma baxımından verilən təfsilat görüləcək işlər baxımından yol xəritəsi funksiyasını yerinə yetirir və müəllimin fəaliyyət proqramının mahiyyət və məzmununda nələrin dayandığını diqqət önünə gətirir. "Ədəbiyyat dərsininnövləri", "Gündəlik plan nümunəsi", "Dərsin mərhələlərinə görə təxmini vaxt bölgüsü", "Dərsin gedişi", "Cari (gündəlik) planın tərtibinə dair tövsiyyələr" və s. mahiyyəti ilə tələbələri mütəxəssi kimi formalaşmasına yönəlmiş işlərdir.

Ümumiyyətlə, Azərbaycan məktəb tarixi bütün zamanlarda yeniləşmələrlə, müxtəlif məktəb təcrübələrinin, dərs nümunələrinin yayılması və tətbiqi mənzərəsi ilə səciyyəvilik qazanır. Orta əsrlərin klassik məktəb təcrübəsi, on doqquzuncu yüzillikdən üzü bəri müşahidə olunan yeniləşmələr ədəbiyyatın tədrisində də bir prinsip olaraq əsas götürülməklə zənginləşmələrə yol açmışdır. Son dövrün (müstəqillikdən sonrakı mərhələ) texnoloji vüsəti zəngin pedaqoji təcrübəyə öz töhfələrini vermiş və bu bütün paradiqması ilə respublika səviyyəsində görünməkdədir. Metodist alim F.Yusifovun "Ədəbiyyatın tədrisi metodikası" dərsliyi bütün bu proseslərin yekunu və ifadəsi olaraq ortaya çıxmış, bundan sonrakı proseslərin dinamik mənzərəsinin əks etdirmək baxımından örnəyə çevrilmişdir.